**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**TURAL SÜLEYMAN OĞLU MƏMMƏDOV**

# İRƏVAN XANLIĞINDA SOSİAL-İQTİSADİ MÜNASİBƏTLƏR VƏ DÖVLƏT QURULUŞU (1747-1828)

**İxtisas: 5503.02 – "Vətən tarixi"**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**Bakı – 2018**

Dissertasiya Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi" şöbəsində yerinə yetirilmişdir

**Elmi rəhbər:**
AMEA-nın həqiqi üzvü,
Əməkdar elm xadimi,
Dövlət Mükafatı laureatı **Y.M.Mahmudov**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru, prof. **C.M.Mustafayev**
tarix üzrə fəlsəfə doktoru, dos. **G.C.Nəcəfli**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrası

Müdafiə Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində 5502.01 – "Ümumi tarix", 5503.02 – "Vətən tarixi", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "___" _________2018-ci il tarixli iclasında, saat______ keçiriləcəkdir.

**Ünvan:** AZ1143, Azərbaycan Respublikası, Bakı ş., H.Cavid pr., 115

Dissertasiya ilə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar

Avtoreferat "___"__________2018-ci il tarixdə göndərilmişdir

D.01.161 Dissertasiya Şurasının
elmi katibi, tarix üzrə fəlsəfə doktoru,dos. **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Müasir Azərbaycan milli tarix elmi qarşısında duran ən mühüm elmi istiqamətlərdən biri Azərbaycan xalqının bütün dövrlərə aid sosial-iqtisadi tarixi problemlərinin tədqiq olunması məsələsidir. XVIII əsrin II yarısı Azərbaycanın siyasi pərakəndəlik dövrüdür və bu dövrdə ölkə ərazisində yaranmış müstəqil xanlıqların siyasi və mədəniyyət tarixi ilə yanaşı, onun sosial-iqtisadi tarixinin tədqiqi bu gün elmi və siyasi əhəmiyyət kəsb edir. XVIII əsrin II yarısında 80 il mövcud olmuş və çar Rusiyası işğalına qarşı qəhrəmanlıqla müqavimət göstərmiş dövlətlərimizdən biri də İrəvan xanlığıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bağlı etdiyi çıxışında demişdir: “Tarix elmləri ilə bağlı olan məsələlər daim diqqət mərkəzindədir. Biz bu məsələyə çox böyük diqqət göstəririk. Mən çox şadam ki, tarixçilərimiz çox sanballı və əsaslı əsərlər yaradırlar. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bizə diktə edir ki, bu sahəyə daha da böyük diqqət göstərək. Çünki bu bölgənin tarixi ermənilər tərəfindən daim saxtalaşdırılır, daim təhrif olunur. Şadam ki, alimlərimiz mənim çağırışıma müsbət cavab verərək qısa müddət ərzində bu bölgənin tarixi ilə bağlı çox gözəl və real faktlara əsaslanmış əsərlər yaratmışlar. Başlıcası, İrəvan xanlığının tarixi ilə bağlı yaradılmış əsərlər xüsusi məna daşıyır. Çünki əfsuslar olsun ki, dünya birliyi demək olar bilmirdi ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır”.[1]

Bu baxımdan, İrəvan xanlığının sosial-iqtisadi həyatı və dövlət quruluşunun tədqiq edilməsi öyrənilməmiş bir sıra məsələlərə aydınlıq gətirmək baxımından dəyərlidir.

XIX əsrin əvvəllərində Azərbaycanın çar Rusiyası və Qacarlar İranı arasında bölüşdürülməsi əslində, XVIII əsrin sonunda Azərbaycanda gedən Rusiya-İran-Osmanlı rəqabətinin məntiqi nəticəsi olmuş, ölkənin siyasi dağınıqlığı isə bunun üçün əlverişli şərait yaratmışdı. Buna görə də XVIII əsrin ikinci yarısında İrəvan xanlığının sosial-iqtisadi həyatı və dövlət quruluşu məsələlərinin öyrənilməsi təkcə elmi yox, həm də siyasi cəhətdən aktualdır.

Azərbaycan xalqının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında özünəməxsus yeri olan İrəvan xanlığı tarixinin araşdırılması istiqamətində son dövrlərdə bir sıra tədqiqat əsərləri yazılsa da, xanlığın dövlət quruluşu və sosial-iqtisadi münasibətlər sisteminin öyrənilməsi indiyədək ayrıca tədqiqat mövzusu olmamışdır. Problemin aktuallığını şərtləndirən əsas amillərdən biri də məhz bununla əlaqədardır.

İrəvan xanlığının idarəetmə sisteminin və dövlət quruluşunun tədqiqi Azərbaycanın dövlətçilik tarixinin zənginləşdirilməsinə xidmət edir.

---

[1] Əliyev İ.H. http://president.az/mobile/articles/2041

Problemin aktuallığını şərtləndirən amillərdən biri də xanlığın əhalisinin milli tərkibinin araşdırılması və bu sahədə erməni tədqiqatçılarının verdikləri saxta məlumatların təkzib edilməsi, xanlığın demoqrafik strukturunun həqiqi mənzərəsinin ortaya qoyulmasıdır.

Problem bilavasitə 1747-1828-ci illəri dövrünü əhatə etsə də, Mir Mehdi xan Qasımlı tərəfindən İrəvan xanlığı yaranmazdan əvvəl mövcud olmuş Çuxur-Səəd bəylərbəyliyinin sosial-iqtisadi münasibətlər sistemi haqqında da ətraflı məlumat verilmişdir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Təqdim olunan tədqiqatın xronoloji çərçivəsinə gəldikdə, XVIII əsrin ortalarında Nadir şah Əfşarın ölümündən sonra yaratmış olduğu qüdrətli imperiyanın parçalanması nəticəsində Azərbaycanda yaranmış müstəqil xanlıqlardan biri olan İrəvan xanlığının 1827-ci ildə çar Rusiyası tərəfindən işğal edilməsinə kimi sosial-iqtisadi tarixi və dövlət quruluşu məsələlərinin araşdırılması təşkil edir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Problemin bu və ya digər tərəfləri bir sıra tarixçilərin tədqiqat obyekti olmuşdur. Bütün bunları nəzərə alaraq mövzunun tarixşünaslığına öz münasibətimizi bildirməyi vacib sayırıq. Mövzu ilə bağlı tarixi ədəbiyyatı, nəşr olunma dövrlərinə görə aşağıdakı şəkildə qruplaşdırmaq olar:

- Sovet dövrünə qədərki çar Rusiyası tarixçilərinin əsərləri;
- Sovet dövrünə qədərki erməni tarixçilərinin əsərləri;
- Sovet dövrü tarixçilərinin əsərləri;
- Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonrakı dövründə yazılmış əsərlər.

Birinci qrupa daxil olan əsərlərin müəllifləri keçmiş sovet tarixşünaslığında zadəgan – burjua tarixçiləri adlandırılaraq kəskin şəkildə tənqid edilirdilər. Bu qrupa mənsub olan əsərlərdən danışarkən ilk növbədə S.Burnaşov,[1] P.Q.Butkovun[2] əsərlərini qeyd etmək lazımdır. Həmin tarixçilər üçün məsələlərə böyük dövlətçilik, şovinizmi mövqeyindən yanaşılmaq səciyyəvidir. Bu tarixçilərin əsərlərində hərbi əməliyyatların təsvirinə çox yer verildiyinə baxmayaraq, bizi maraqlandıran dövrün məsələlərinə, o cümlədən İrəvan xanlığının sosial-iqtisadi həyatı və dövlət quruluşu barədə xeyli faktiki material cəmlənmişdir. Bu baxımdan N.F.Dubrovın,[3] eləcə də V.A.Pottonun[4] əsərləri xüsusi əhəmiyyət kəsb edir. Bununla yanaşı, qeyd etmək lazımdır ki,

---

[1] Бурнашев С.Д. Описание областей Адребижанских в Персии, и их политического состояния. Курск: 1773.

[2] Бутков П.Г. Материалы для новой истории Кавказа с 1772 по 1803 гг., ч.II, Санкт-Петербург: 1869.

[3] Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. Санкт-Петербург: 1886.

[4] Потто В.А. Исторический очерк Кавказских войн от их начала до присоединения Грузии. Тифлис: 1899; Yenə onun: Первые добровольцы Карабаха в эпоху водворения русского владычества (Меликвани и Акоп-Юзбаши Атабековы). Тифлис: 1902.

həmin müəlliflər bəhs etdikləri dövrdə İrəvan xanlığının sosial-iqtisadi vəziyyəti və dövlət quruluşu məsələlərinə xüsusi diqqət yetirməmişlər. Dissertasiya yazılarkən erməni mənbələri ilə yanaşı, bir sıra digər rus tarixçilərinin əsərlərindən də istifadə olunmuşdur. Həmin əsərlərin müəllifləri Rusiyanın xarici siyasətində "Şərq məsələsi və onun kökləri"ni araşdırmağa çalışmış, Rusiyanın müstəmləkəçilik siyasətini ört-basdır etmişlər.[1]

Mövzunu tədqiq edərkən XIX əsr Azərbaycan tarixçilərindən A.Bakıxanov,[2] Mirzə Adıgözəl bəy,[3] Mirzə Camal Qarabağinin[4] və b. əsərlərindən də istifadə etmişik. Göstərilən müəlliflərin əsərlərində Azərbaycanın XVIII əsrə dair sosial-iqtisadi məsələləri barədə çox cüzi məlumat verilir.

Nadir şah Əfşarın ölümündən sonra Azərbaycan ərazisində yaranmış xanlıqlar içərisində İrəvan xanlığının xüsusi yeri olmuşdur.

1917-ci ilin fevralına qədərki tarix ədəbiyyatında və erməni tarixçilərinin kilsə tarixinə həsr etdikləri əsərlərdə mövzu ilə əlaqədar bir neçə cümləyə təsadüf edilir. M.Ormanıyanin "Millətin tarixi divani" adlı əsəri bu sahədə müstəsnalıq təşkil edir. Müəllif Qyud Ağayanın "Erməni tarixi divanı" adlı məcmuəsinin materiallarından istifadə edərək, XVIII əsrin II yarısında İrəvan xanlığının sosial-iqtisadi münasibətləri və b. məsələlər haqqında məlumat verir.[5]

Bəhs edilən dövrdə erməni tarixçiləri tərəfindən İrəvan xanlığının sosial-iqtisadi tarixi və dövlət quruluşuna aid bəzi tədqiqatlar aparılsa da, bir çox məsələlər diqqət mərkəzindən kənarda qalmışdır. Məsələn, Leonun (Arakel Babaxanyan)[6] tədqiqatları İrəvan xanlığının sosial-iqtisadi həyatı, xanlığın Eçmiədzin katolikosluğu ilə əlaqələri, erməni xalqına münasibət məsələləri orta əsr erməni tarixşünaslığı mövqeyindən yazılmışdır. O, siyasi məsələlərə daha çox yer verdiyindən İrəvan xanlığının təsərrüfat həyatı, dövlət quruluşu məsələləri diqqət mərkəzindən kənarda qalmışdır.

A.R.Hovannisyan və A.G.Hovannisyan XVIII əsrin 80-ci illərində erməni azadlıq hərəkatı və erməni-rus münasibətləri tarixinə dair əsərlərində[7] İrəvan

---

[1] Зевакин Е. Азербайджан в начале XVIII в. // Известия общества и изучения истории Азербайджана, № 8, вып. IX 1929; Иоаннисян А.Р., Арутюнян П. Армения // Очерки истории СССР. Период феодализма. Россия во второй половине XVIII в. М.: 1956; Колониальная политика Российского царизма в Азербайджане в 20-60 годах XIX в т. 1. М.: - Л.: 1936.

[2] Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı: 1951.

[3] Mirzə Adıgözəl bəy. Qarabağnamə. I kitab. Bakı: 1956.

[4] Mirzə Camal Qarabaği. Qarabağ tarixi. Qarabağnamələr. I kitab. Bakı: 1959, 103-148.

[5] Ağayan Q. Erməni tarixi divanı. 3 clddə. İrəvan: 1987.

[6] Leo (Arakel Babaxanyan). Erməni tarixi. Yeni dövr. III h. İrəvan: 1946.

[7] Иоаннисян А.Р. Россия и армянское освободительное движения 80-х годах XVIII столетия. Ереван: 1947; A.Q.Hovannisyan. Erməni azadlıq hərəkatı tarixi fikri oçerkləri, 2-ci kitab. Yerevan: 1959 (erməni dilində).

xanlığının sosial-iqtisadi vəziyyətinə aid maraqlı məlumat vermişlər. Bu sənədlərin çoxu tədqiqata cəlb olunmuşdur.

İrəvan xanlığının tarixi Sovet Rusiyası və Ermənistan ideoloqlarının təhriki ilə saxtalaşdırılaraq "Şərqi Ermənistan" adı altında SSRİ tarixinin tərkibində də verilmişdir.[1] S.A.Yegiazarovun əsərində kilsə mülkiyyəti və təsərrüfat həyatına dair xeyli məlumat öz əksini tapmışdır.[2]

Simeon İrəvanlının "Cambr"[3] əsərində XVIII əsr İrəvan xanlığının sosial-iqtisadi tarixi barədə xeyli material vardır. Yeri gəldikcə həmin əsərdən tənqidi istifadə etmişik.

Manvel Gumuşxanesi 1797-ci ilin əvvəllərində İrəvan xanlığında baş vermiş vəba xəstəliyi və digər hadisələr barədə «Kavkazskaya starina» jurnalının 1872-ci il 12-ci sayında çap etdirdiyi materialda ətraflı məlumat vermişdir.[4]

XVIII əsrin sonlarında İrəvan xanlığı və onun qonşu ölkələrlə əlaqələri tarixinin öyrənilməsində Arutyun Araratyanın çoxsaylı bioqrafik əsərlərinin böyük elmi əhəmiyyəti vardır.[5] Müəllif bu dövrün siyasi və iqtisadi həyatına aid xeyli məlumat verir. Valarşabad kəndinin kəndlilərinin məişət həyatı, əməkçi kəndlinin ağır güzəranı barədə onun verdiyi məlumatlar tədqiqatımız üçün daha dəyərlidir.

1795-ci ildə Ağa Məhəmməd xanın yürüşündən sonra ölkədə yaranmış ağır sosial-iqtisadi vəziyyət haqqında Vardan Oznesinin məlumatı diqqəti xüsusilə cəlb edir.[6]

XIX əsrin birinci otuzilliyində N.Boqdanovun əsəri tədqiqatımız üçün mühüm əhəmiyyətə malikdir.[7] Müəllifin xanlığın ərazisində məskunlaşan əhalidən alınan vergi siyahısını əsərə əlavə etməsi diqqəti çəkir.

1827-ci il oktyabrın 1-də İrəvan xanlığının çar Rusiyası qoşunları tərəfindən işğalından sonra İ.Paskeviçin dəvəti ilə Sankt-Peterburqdan dəvət edilən İvan Şopen İrəvan və Naxçıvan xanlıqları ərazilərində yaradılan "Erməni vi-

---

[1] Иоаннисян А.Р., Арутюнян П. Армения // Очерки истории СССР. Период феодализма. Россия во второй половине XVIII в. Москва: 1956.

[2] Егиазаров С.А. Очерки по истории учреждений в Закавказье. Сельская община, ч. 1. Казань: 1889, 31, 81-82, 280.

[3] Simeon İrəvanlı. Cambr. Vağarşabad: 1873 (qədim erməni dilində), c. 37, 112, 175, 181, 185.

[4] Гумшханеци М. Кавказская старина. Тифлис: 1872, №12.

[5] Жизнь Артемия Араратского, уроженца Вагаршапат, близ горы Арарат, ч.1, ч.2, Москва: 1981.

[6] Qazar Çahçesi. Arzu edilən cənnət adlanan ilahiyyat kitabı. İstanbul: 1735, s. 106 (Osmanlı türkcəsində).

[7] Богданов Н. К вопросу о феодальной эксплуатации кочевников в Закавказском крае в первой трети XIX в. // Исторический архив, АН СССР. М.:-Л.: 1939, с. 223-229, 268.

layəti"nin ərazilərində 1929-1932-ci illərdə kameral siyahıyaalma keçirmişdir. Əlyazması 20 səhifədən ibarət həmin siyahıyaalmanın nəticələri İ.Şopenin əsərində öz əksini tapmışdır. Həmin əsərdə İ.Şopen İrəvan xanlığının dövlət quruluşu və sosial-iqtisadi münasibətləri haqqında çox ətraflı məlumat vermişdir.[1]

1917-ci ilin fevralına qədərki müəlliflərin çoxu (İ.Şopen, S.Egiazarov, D.Anonim, V.Linden, E.Esadze) müsəlman Şərqində, o cümlədən İrəvan xanlığında torpaq mülkiyyətinin və kəndlinin şəxsən azad olmasını və ya asılılığını göstərməyə çalışmışlar. Bu məsələ tarixçilər arasında mübahisəyə, bəzən də kəskin tənqidə səbəb olmuşdur.

Müsəlman şərqində feodal torpaq mülkiyyəti və kəndlinin şəxsi asılılığı ətrafında gedən mübahisələrin sonrakı gedişində tarixçilərin çoxunda belə bir fikir yaranmışdır. İrəvan xanlığının iqtisadiyyatında həm də torpaq sahibliyi formalaşırdı. Bu fikri İ.Petruşevski,[2] A.Esayan,[3] B.M.Arutyunyan,[4] G.Rştuni,[5] M.Eqanyan[6] müdafiə etmişlər.

Problem ətrafında mübahisəni indi də davam etdirən erməni müəlliflərinin yazılarında bu fikrin müşahidə olunması aydındır. Bu fikir çar Rusiyası işğalı ərəfəsində İrəvan xanlığının sosial-iqtisadi həyatının, torpaq münasibətlərinin necə olması barədə düzgün təsəvvürün olmamasından irəli gəlir. Bu suala cavab vermək üçün onun xüsusiyyətini və sonrakı gedişini bilmək tələb olunur.

İrəvan xanlığının sosial-iqtisadi həyatı və dövlət quruluşu məsələlərinə Azərbaycan tarixçilərinin əsərlərində də toxunulmuşdur. Fuad Əliyev və Urxan Həsənovun "İrəvan xanlığı" əsərində İrəvan xanlığının sosial-iqtisadi münasibətlərinə xeyli yer verilmişdir.[7]

Camal Mustafayevin "Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq"[8] monoqrafiyası Azərbaycan xanlıqlarında sənətkarlıq istehsalı probleminin öyrənilməsinə həsr edilmişdir. Müəllif zəngin arxiv materialları və digər mənbələr əsasında sənət istehsalının əsas mərkəzləri olan Azərbaycan şəhərlərində – o cümlədən İrəvanda sənətkarlığın inkişaf səviyyəsini tədqiq etmiş, sənətkarlıq təşkilatlarının vəziyyətini və rolunu, sənətkarlardan toplanan ver-

---

[1] Şopen İ.İ. Göstərilən əsəri. s. 442, 446, 468, 543, 546.

[2] Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - начале XIX вв. Ленинград: 1949, с. 65.

[3] Есаян А.М. Мулькадарское право в Армении. Ереван: 1948.

[4] Арутюнян Б.М. Крупное монастырское хозяйство в Армении в XVII-XVIII вв. Ереван: 1940.

[5] Rştuni G. Ermənistan kəndliləri tarixinin cizgiləri. I h. İrəvan, 1966.

[6] Еганян М.Н. Аграрные отношения в Армении до и после ее присоединения к России. Автореф. на соис.учен.степ. докт.экон. наук. Ереван: 1967.

[7] Əliyev F, Həsənov U. İrəvan xanlığı. Bakı: Şərq-Qərb, 2007, s.50-71.

[8] Mustafayev C.M. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: 2002.

gilərin xarakterini çox dəqiqliklə araşdırılmışdır.

AMEA-nın həqiqi üzvü Yaqub Mahmudovun ümumi redaktəsi ilə çap olunmuş "İrəvan xanlığı: Ruziya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" adlı monoqrafiyada[1] İrəvan xanlığının əhalisi, sosial-iqtisadi həyatı, sərhədləri, inzibati bölgüsü, idarəçilik sistemi, mədəniyyəti, xarici siyasəti, Rusiya imperiyası və qacarlar dövlətinin işğalçılıq planları, İrəvan xanlığının Rusiya imperiyası tərəfindən zəbt edilməsi, işğal olunmuş İrəvan xanlığı ərazisində ermənilərin Qacarlar İranından və Osmanlı imperiyasından köçürülməsi, İrəvan xanlığı ərazisindəki azərbaycanlılara məxsus yer adlarının kütləvi surətdə dəyişdirilməsi, tarixi adlara qarşı soyqırımı və digər bölmələr vardır. Kollektiv əməyin məhsulu olan bu əsərdə, həmçinin İrəvan xanlığında Azərbaycan xalqının min illər boyu yaratdığı maddi və mənəvi mədəniyyət tarixinin ayrılmaz tərkib hissəsi olması öz təsdiqini tapmışdır.

İrəvan xanlığının sosial-iqtisadi həyatı ilə bağlı məsələlər Fəzail Ağamalının "XVIII əsrin II yarısı – XIX əsrin əvvələrində Quzey Azərbaycan xanlıqlarında sosial-iqtisadi vəziyyəti" adlı əsərində[2] də öz əksini tapmışdır.

E.K.Məmmədova "XVIII əsrin II yarısında Azərbaycan xanlıqlarının inzibati quruluşu istiqamətləri"ndən bəhs edərkən İrəvan xanlığının sosial-iqtisadi məsələlərinə də toxunmuşdur.[3]

T.T.Mustafazadənin "Azərbaycan xanlıqlarının qısa tarixi" adlı əsərində[4] İrəvan xanlığının yaranması, idarə quruluşu barədə mühüm məlumat verilmişdir.

Elçin Qarayevin "İrəvan xanlığı (1747-1828)"[5] və "Azərbaycanın İrəvan bölgəsinin tarixindən: XVII yüzilliyin sonu – XIX yüzilliyin ortalarında"[6] monoqrafiyasında İrəvan xanlığının siyasi, iqtisadi tarixi, tarixi coğrafiyası və əhalisi haqqında ətraflı məlumat verilmişdir.

İsrafil Məmmədov "Tariximiz, torpağımız, taleyimiz" əsərində[7] Azərbaycan tarixinin ayrılmaz tərkib hissəsi olan İrəvan xanlığının tarixi keçmişinə nəzər salmış, xanlığın sosial-iqtisadi məsələlərinə toxunmuşdur.

Vidadi Muradovun "Azərbaycanın İrəvan bölgəsi: tarixi və xalçaları" adlı

---

[1] İrəvan xanlığı: Ruziya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: 2009.

[2] Ağamalı F. XVIII əsrin II yarısı – XIX əsrin əvvələrində Quzey Azərbaycan xanlıqlarında sosial-iqtisadi vəziyyəti. Bakı: 1999.

[3] Мамедова Е.К. Админстративное устройство и направлене Азербайджанских ханств во второй пол. XVIII в. (Автореф. канд. дисс.). Баку: 1999.

[4] Mustafazadə T.T. Azərbaycan xanlılarının qısa tarixi. Bakı: 2011, s. 237-264.

[5] Qarayev E.T. İrəvan xanlığı (1747-1828). Bakı: Avropa, 2010.

[6] Qarayev E.T. Azərbaycanın İrəvan bölgəsinin tarixindən: XVII yüzilliyin sonu – XIX yüzilliyin ortalarında. Bakı: 2016.

[7] Məmmədov İ.S. Tariximiz, torpağımız, taleyimiz. Bakı: 2002.

əsərində İrəvan bölgəsində sənətkarlığın xüsusən də xalçaçılıq sənətinin inkişafı hərtərəfli tədqiq olunmuşdur.[1]

Nazim Mustafanın "İrəvan şəhəri. Türk-islam varlığı necə yox edildi"[2] əsərində Azərbaycanın qədim siyasi və mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərinin tarixi keçmişi, əhalisinin etnik tərkibi, memarlıq abidələri və onların aqibəti, sənətkarlıq nümunələri, İrəvan teatrı, mətbuatı, elm və mədəniyyət xadimləri haqqında ətraflı məlumat verilir. Həmçinin, bu gün İrəvan xanlığının Ermənistan dövlətinin monoetnik paytaxtına çevrilən İrəvan şəhərində XX əsrin əvvəllərindən etibarən azərbaycanlılara qarşı ermənilər tərəfindən həyata keçirilən kütləvi qətliamlar, soyqırımlar və etnik təmizləmə siyasəti haqqında sənədlərin dili ilə söhbət açılır.

Güntəkin Nəcəflinin "İrəvan xanlığının mahalları" adlı kitabçasında[3] İrəvan xanlığının inzibati bölgüsü təqdim edilmiş, həmin ərazidəki bütün yer-yurd adlarının mütləq əksəriyyətinin Azərbaycan türkcəsində olması həmin ərazilərinin köklü sakinlərinin azərbaycanlılardan ibarət olması faktları öz əksini tapmışdır.

İradə Məmmədovanın "İrəvan xanlığının əhalisi" adlı kitabçasında[4] İrəvan xanlığının əhalisinin etnik və dini mənsubiyyəti, məşğuliyyəti, xanların əhali siyasəti öz əksini tapmışdır.

İrəvan xanlığının sosial iqtisadi həyatı ilə bağlı məsələlərə ümumiləşdirilmiş əsərlərdə də toxunulmuşdur.[5]

**Tədqiqatın mənbə bazası.** Tədqiqat işinin əsas mənbə bazasını Rusiya imperiyası Xarici Siyasət Arxivi (RİXSA), Rusiya Dövlət Hərb Tarixi Arxivinin Potyomkin fondunda (RDHTA) və Qədim Aktlar arxivində (RQAA) saxlanılan sənədlər və çap olunmuş mənbələr təşkil edir. Erməni tarixçisi Q.Qarnesinin İrəvan xanlığının sosial-iqtisadi həyatı və dövlət quruluşuna aid Matenadaranda saxlanılan yazıları, Matenadaranın katolikos divanının sənədlərindən mövzunu tədqiq etmək üçün istifadə olunmuşdur.

XVIII əsrin son onilliyində İrəvan xanlığına aid nəşr edilən ilk mənbələr sırasında Matenadaranda və Moskva arxivlərində saxlanılan sənədlər diqqəti daha çox cəlb edir. Qeyd edək ki, Q.Qarnesinin məktublarının bir hissəsi Q.Ağayanın əsərilə birlikdə Konstantinopola (İstanbula) göndərilmiş, orada çap olunmuşdur. Burada, əsasən Ağa Məhəmməd xanın Azərbaycana yürüşü vaxtı baş vermiş hadisələr təfərrüatı ilə qələmə alınmışdır.[6] Hazırda həmin

---

[1] Muradov V.A. Azərbaycanın İrəvan bölgəsi: tarixi və xalçaları. Bakı: 2015.

[2] Mustafa N. İrevan şehri. Türk-islam varlığı nasıl yok edildi. Ankara: 2015.

[3] Nəcəfli G.C. İrəvan xanlığının mahalları. Bakı: 2017.

[4] Məmmədova İ.M. İrəvan xanlığının əhalisi. Bakı: 2017; Yenə onun: İrevan Hanlarının Nüfus Politikası //XVI. Türk Tarih Kongresi, 20-24 Eylül 2010, Ankara, Kongreye sunulan bildiriler, 2. Cilt, Orta Asiya ve Kafkasya Tarihi, Ankara: 2015.

[5] Azərbaycan tarixi, Yeddi cilddə, üçüncü cild. Bakı: 1999, s. 440-459.

[6] Куция К. Города Восточного Закавказья в XVI-XVIII вв. Тбилиси: 1976, 267-269.

məktublar Matenadaranda Q.Qarnesinin əlyazması fondunda saxlanılır.[1]

A.Q.Hovhannisyanın əsərinin əlavəsində də tədqiqatımıza aid bir çox maraqlı sənədlər verilmişdir. Bu sənədlərin çoxu indiyə qədər çap olunmamışdır. Bunlar Rusiya İmperiyası Dövlət Hərb Tarixi (RİDHTA)[2] və Qədim Aktlar arxivlərində (RİQAA)[3] saxlanılır. Bu baxımdan imperiyanın Hərb Tarixi Arxivinin Q.Potyomkin fondunda saxlanılan sənədlər əhəmiyyət daşıyır. Uzun müddət Gürcüstanda rus ordusunun komandanı olmuş S.Burnaşovun əsərində də İrəvan xanlığının iqtisadi vəziiyyəti ilə bağlı maraqlı faktlar vardır.[4]

Sonrakı dövrün rus arxiv sənədləri də, həmçinin İrəvan xanlığı haqqında məlumat verir. Xanlığın ərazisndə məskunlaşan əhalidən toplanan vergi siyahısı barədə İ.Şopenin məlum tədqiqatı[5] və N.Nefediyevin[6] yol qeydləri diqqəti cəlb edir. İ.Şopenin həmin əsəri İrəvan xanlığı çar Rusiyası tərəfindən işğal edildikdən sonra tərtib edilməyə başlamış və 1831-si ildə tamamlanmışdır.

Q.A.Ezov[7] tədqiq etdiyimiz dövrdə erməni-rus münasibətlərinə aid tədqiqat aparmışdır. Onun erməni katolikosluğu, rus-erməni münasibətləri və İrəvan xanlığına aid bəzi tendensiyalı qeydləri vardır.

XVIII əsr İrəvan xanlığının sosial-iqtisadi həyatı və dövlət quruluşu haqqında gürcü mənbələrində də kifayət qədər material vardır. L.Melikset-bek bu faktları tarixçilərin əsərlərindən və dövrün xatirə yazılarından toplamış, gürcü dilinə tərcümə edərək nəşr etdirmişdir.[8] A.A.Sakareli bir sıra arxiv sənədlərini toplayıb redaktə edərək çap etdirmişdir. Bu sənədlər içərisində rus, gürcü və İranın rəhbər şəxslərinin İrəvan xanlığı və xanlığın sosial-iqtisadi həyatını əks etdirən məqamlara da təsadüf edilir.[9]

---

[1] Matendaran. Əlyazma, 4331, sən. 85[a] Onun haqqında bax: Q.Qarnesinin əlyazıları İrəvan Dövlət Universitetinin «Xəbərləri», c. XIII; Ələkbərli Ə.Y. Qərbi Azərbaycan Vedibasar mahalı. I c. Bakı: 2000, 153 s.

[2] Российской Государственный Военно-Исторический Архив (РГВИА) фонд 52, (Г.Потемкина).

[3] Российской Государственный Архив Древних Актов (РГАДА). Фонд государственный архив, реестр XXIII, д. 477.

[4] Бурнашев С.Д. Описание областей Адребижанских в Персии, и их политического состояния. Курск: 1773, с. 17.

[5] Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург: 1852, с. 442, 446, 468, 543, 546.

[6] Взгляд на Армянскую область из путевых записок Н.Нефедьева, Санкт-Петербург: 1839, 72.

[7] Эзов Г.А. Сношения Петра Великого с армянскими народами. Т.II. Санкт-Петербург: 1898.

[8] Melkiset-bek L. Gürcü mənbələri Ermənistan və ermənilər haqqında. III c. İrəvan: 1955, 153, 172, 179, 187.

[9] Грамоты и другие исторические документы XVIII столетия, относящиеся по истории Грузии т.II, ч.II с. (1769 по 1801 года), Санкт-Петербург: 1902.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (araşdırma, tərcümə, qeydlərin müəllifləri akad. Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı).[1] İrəvan əyalətinin o dövrdəki inzibati-ərazi bölgüsünə görə bütün yaşayış məntəqələri, bu məntəqələrin hansı nahiyə və bölgədə yerləşməsi, bugünkü təbliğat üçün çox gərəkli və zəruri olan yer adları, əhalidən alınan vergilərin adı və miqdarı və s. haqqında ətraflı məlumat verilir. "İrəvan əyalətinin icmal dəftəri" 1728-ci ilə aid statistik məlumatlarla yanaşı, 1590-cı ilə aid məlumatları da özündə ehtiva edir.

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan milli tarixşünaslığında erməni tarixşünaslığındakı əsassız fikirləri təkzib edən xeyli mənbə və tədqiqat əsəri işıq üzü görmüşdür. Bu mənbələr içərisində İsgəndər bəy Münşinin[2] əsərində Azərbaycanın XV əsrin sonu – XVII əsrin ilk otuz ilinin sosial-iqtisadi və siyasi tarixinə dair kifayət qədər məlumat vardır.

Mövzuya dair sənədlərin bir hissəsi müxtəlif məcmuələrdə və külliyyatlarda nəşr olunmuşdur. Bu növ nəşrlərdən danışarkən ilk növbədə A.Berjenin redaktəsi ilə nəşr olunmuş 12 cildlik Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarını (AKAK) qeyd etmək lazımdır. "Aktlar"ın tərtibçiləri Rusiyanın Azərbaycanı işğal etməsi prosesini əks etdirən sənədləri tarixi ardıcıllıqla toplamışlar.[3] Dissertasiyada Azərbaycandakı işğalçı rus qoşunları komandirlərinin aktlarda toplanmış yazışmalarından istifadə edilmişdir. Bu sənədlər XVIII əsrin sonu – XIX əsrin əvvəllərində çar Rusiyasının İrəvan xanlığında həyata keçirdiyi siyasətin müstəmləkəçi mahiyyətini və aqrar məsələləri açmağa imkan verir.

**Tədqiqatın məqsəd və vəzifələri** arxiv sənədləri və yazılı mənbələr əsasında XVIII əsrin ikinci yarısında İrəvan xanlığının sosial-iqtisadi həyatını və dövlət quruluşu məsələlərini araşdırmaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün dissertasiya işində aşağıdakı konkret vəzifələrin həlli nəzərdə tutulmuşdur:

- İrəvan xanlığın sərhədlərini, inzibati bölgüsünü və mərkəzi idarəçilik sistemini müəyyənləşdirmək;
- XVIII əsrin ikinci yarısında İrəvan xanlığının sosial-iqtisadi həyatını hərtərəfli araşdırmaq;
- İrəvan xanlığının iqtisadi inkişaf istiqamətlərini müəyyənləşdirmək;
- Çar Rusiyası, Qacarlar İranı və Osmanlı Türkiyəsinin xarici siyasətində xanlığın yerini müəyyənləşdirmək;
- Bu dövlətlərin Cənub-Şərqi Qafqaz torpaqlarında mənafelərinin toqquşmasını, onlar arasında gedən rəqabətin İrəvan xanlığının sisial-iqti-

---

[1] İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcürmə, qeyd və əlavələrin müəllifləri akad. Ziya Bünyadov və t.e.n. Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Elm, 1996.

[2] İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. Fars dilindən çevirəni t.e.d. prof. Ş.F.Fərzəliyev. I Kitab, Bakı: 2010; II Kitab, Bakı: 2014.

[3] Акты, собранные Кавказской Археологической Комиссией (АКАК), т. I, д.1192. Тифлис: 1866; АКАК, т. II. Тифлис: 1868, док.1366.

sadi həyatına təsirini izləmək;
- İrəvan xanlığının daxili münaqişələrindən istifadə edən tərəflərin Azərbaycandakı mövqelərini aydınlaşdırmaq;

**Dissertasiyanın elmi yeniliyi** hər şeydən əvvəl İrəvan xanlığının sosial-iqtisadi həyatı və dövlət quruluşu ilk dəfə xüsusi tədqiqat obyekti olması ilə müəyyənləşir. Azərbaycan Respublikası, keçmiş Ermənistan SSR və Rusiya Federasiyasının müxtəlif arxivlərindən toplanmış zəngin materialların təhlili, İrəvan xanlığının iqtisadi həyatını dərindən araşdırmaq və dövlət quruluşuna yeni mövqedən yanaşmaq imkanı vermişdir. Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildikdən sonra tarix elminin ideoloji buxovlardan azad olması indiyədək yalançı "xalqlar dostluğu" mövqeyindən şərh edilmiş bir çox məsələlərin obyektiv tədqiqinə şərait yaratmışdır. Bununla əlaqədar, aşağıdakıları dissertasiyanın yenilikləri hesab etmək olar:

- Cənubi Qafqazın istilası, çarizmin bölgədə müttəfiqlər əldə etməsinə səy göstərməsi və onların regiondakı mövqelərindən istifadə etməsi məsələləri yeni qaynaqlar əsasında araşdırılıb;
- İrəvan şəhəri və xanlığın əhalisinin etnik tərkibi və etnokonfessional strukturu verilib;
- Azərbaycanın milli dövlətçilik tarixində İrəvan xanlığının yeri və rolu aydınlaşdırılıb;
- Vahid mərkəzləşdirilmiş hakimiyyətin yaradılmasına və möhkəmləndirilməsinə edilən cəhdlər ardıcıl izlənilib;
- İrəvan xanlığının sosial-iqtisadi həyatının bitkin mənzərəsi yaradılıb;
- İrəvan xanlığının mahalları və onlara daxil olan kəndləri lokalizə edilib;
- İrəvan xanlığında dövlət mülkiyyəti formaları: dövlət, mülk, tiyul, vəqf, icma və yaxud camaat torpaqları səciyyələndirilib;
- İrəvan xanlığında vergi və mükəlləfiyyət barədə geniş məlumat verilib;
- II İraklinin hiyləgər siyasəti və onun İrəvan xanlığına qarşı həyata keçirdiyi təcavüzkar siyasətin xanlığın sosial-iqtisadi həyatına göstərdiyi təsir aydınlaşdırılıb.
- Hüseynqulu xanın dövründə həyata keçirilən uğurlu xarici siyasətin xanlığın soail-iqtisadi həyatına müsbət təsiri təhlil edilmişdir.

**Dissertasiyanın metodoloji əsası.** Tədqiq olunan problemin araşdırılmasında tarixi yanaşma, tənqidi-analitik üsuldan, müqayisəli təhlil, tarixi gerçəkliklərin aydınlaşdırılmasında prosesləri doğuran səbəb və nəticələrin əlaqəsi metodundan istifadə edilmiş, dünya tarix elminin və Vətən tarixşünaslığının son nailiyyətləri nəzərə alınmışdır. Tədqiqatın gedişində istifadə olunmuş əsas üsul elmi araşdırmalarda geniş yayılmış müqayisəli təhlil metodudur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqat işinin təcrübi əhəmiyyəti onunla izah edilə bilər ki, dissertasiyada istifadə olunmuş faktiki materiallardan və əldə edilmiş nəticələrdən universitetlərin tarix fakültələrində "İrəvan xanlığında sosial-iqtisadi münasibətlər və dövlət quruluşu" möv-

zusunda ixtisas kurslarının aparılmasında, ümumiləşdirilmiş əsərlərinin yazılmasında, tədris və dərs vəsaitlərinin hazırlanmasında, elmi konfrans və seminarların keçirilməsində geniş istifadə oluna bilər.

**Mövzunun aprobasiyası**. Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi" şöbəsində yerinə yetirilmiş, iki dəfə müzakirə olunaraq müdafiəyə təqdim olunmuşdur. Tədqiqatın əsas müddəaları, başlıca nəticələri müəllifin bu problemlə bağlı nəşr etdirdiyi elmi məqalələrində, həmçinin respublikamızda keçirilən, eləcə də beynəlxalq elmi-praktik konfranslarındakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu**. Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş mənbə və ədəbiyyatın siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın birinci fəsli "**Mərkəzi və yerli idarəçilik, inzibati ərazi bölgüsü və əhalisi**" adlanır.

Bu fəslin ***"Dövlət quruluşu"*** adlı ilk yarımfəsilində qeyd olunur ki, XVIII əsrin ortalarında İrəvan xanlığı Cənubi Qafqazda yaranmış feodal dövlətlərindən biri idi. Ağrı dağı vadisi, Göyçə gölü hövzəsini və Araz çayından cənub-qərbə uzanan ərazini əhatə edirdi. Xanlıq inzibati cəhətdən naiblərin idarə etdiyi 15 mahala bölünmüşdü. Xanın vəziri və inzibati vəzifə daşıyan bir neçə mirzədən ibarət divanı vardı.[1]

İrəvan xanlığında dövlət hakimiyyəti monarxiya üsul-idarəsinə əsaslanırdı. Monarxiyanın başında qeyri-məhdud – qanunverici, məhkəmə və icra hakimiyyətinə malik olan xan dururdu. Bir sıra xanlıqlarda olduğu kimi, xanın yanında divan və xan şurası fəaliyyət göstərirdi. Divan və ya şura mühüm dövlət vəzifələrini tutan şəxslərdən ibarət olaraq, məşvərətçi rol oynayırdı. Bununla birgə, divanın mövqeyi xanın bu və ya digər qərar çıxarmasına təsir göstərə bilirdi.

Maliyyə fəaliyyətinin əsasını pul sisteminin yaradılması, onun tənzimlənməsi, vergilərin toplanması təşkil edirdi. Bu sahədə naib, yasovul, kəndxudalar, xüsusi olaraq xan tərəfindən təyin olunan sərkərlər əsas rol oynayırdılar.

Xan hakimiyyətinin əsası ordu idi. Qoşunun əsas hissəsi maaflar və elatlardan ibarət idi.

Mahalların idarəsilə mahal bəyləri və ya naiblər məşğul olurdular. Bu vəzifə irsi idi, lakin hər dəfə xan tərəfindən təsdiq edilməli idi.

Xanlığın idarəetmə sistemində çalışanlar demək olar ki, aylıq əmək haqqı almırdı. Onların xidməti yedizdirmə əsasında, yəni xəzinə üçün

[1] Bax: İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 147.

toplanan vergi hesabına ödənilirdi.

XVIII əsrin son rübündə Pəmbək, Şəmşədil və Qazax sultanlıqları Kartli-Kaxetiya çarlığına tabe edilmişdilər.

I fəslin *“**Mahallar, sərhədlər, idarəçilik sistemi**”* adlı 2-ci yarımfəslində deyilir ki, 15 mahala 176 kənd daxil idi:

**Qırxbulaq mahalı** – İrəvanın şimal və cənubunu əhatə edirdi. Cənubdan Araz çayı, şimaldan Dərəçiçək, qərbdən Gərnibasar, şərqdən – Vedibasar mahalları ilə həmsərhəd idi.

**Vedibasar** mahalı sonralar iki yerə, Gərnibasar və Vedibasar mahallarına bölünmüşdü.[1] Lakin bəhs etdiyimiz dövrdə bu mahal birləşmiş mahal olmuş və Azad çayından (Gərni çay) suvarılan və Arazdan şimala tərəf olan torpaqları, həmçinin Vediçay və Qafan çayı hövzəsindən suvarılan vadiləri öz içərisinə almışdır. Şimaldan Göyçə, şərqdən Şərurla həmsərhəd idi.

**Şərur mahalı** Xoy və Naxçıvan xanlıqları ilə sərhəd olan sahələri əhatə edirdi. Şərq hissəsi Arpa çayı vasitəsilə iki yerə bölünürdü.

**Sürməli mahalı.** Araz çayından cənubda yerləşir, xanlığın cənubqərb istiqamətini əhatə edirdi. Sonralar Dərəkənd-Pərçenis mahalı ondan ayrılmışdı. Onun Pərçenis, Dərəkənd, Pərnəyüd dərə-vadiləri var idi.

**Talın mahalı** cənubdan Sərdarabad və Səədli mahalları ilə, şimaldan Şorayəl, qərbdən Qars paşalığı ilə həmsərhəd idi.

**Seyidli-Ağsaqqallı mahalı** Alagöz dağının cənub və şərq hövzəsindən Abaran mahalına qədər yayılırdı. Cənub və cənub-şərqdən Sərdarabad və Körpü basar mahalları ilə həmsərhəd idi.

**Sərdarabad mahalı** xanlığın ən böyük mahallarından idi. Arazın şimal sahillərində, Sürməli mahalının qarşısında yerləşirdi. Qərbdən Səadli, şərqdən isə Körpübasar mahalları ilə həmsərhəd idi.

**Körpübasar mahalı.** Şərqdən Zəngibasar, qərbdən Sərdərabad mahalları ilə, Şimaldan isə Seyidli-Ağsaqqallı mahalı ilə həmsərhəd idi. Karbi çayı ilə suvarılan bütün torpaqlar mahala daxil idi.

Böyük Alagöz dağlarının şimala və şimal-şərqə doğru uzanın torpaqları, Alagöz və Pəmbək dağları arasına düşən ərazi **Abaran mahalına** daxil idi.

**Dərəçiçək mahalı** şimaldan Pəmbək, cənubdan Qırxbulaq, qərbdən Abaran mahalları ilə əhatə edilmişdi.

**Göyçə** ən böyük mahal idi. Göyçə gölü hövzəsini əhatə edirdi.[2]

Hər bir mahal özünü bir inzibati birləşmə, qurum kimi təqdim edirdi. Onları Mahal naibləri idarə edirdilər. Naiblər nəsli bəylər, məliklər və sultanlar idilər. İrəvan xanı bu vəzifələri adətən qeyri-müəyyən müddətə təyin edirdi. Lakin onlar xanın zəifliyindən istifadə edərək tez-tez, yaxud başqa

---

[1] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. Санкт-Петербург: 1909,s.546.

[2] Bax: İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 147-153.

məqsədli şərtlərdən çıxış edərək mahalları irsi mülklərinə çevirirdilər.[1]

Mahallar içərisində çoxlu kəndli icmaları var idi. Onları minbaşıların təyin etdiyi nüfuzlu naiblər, seçmə məliklər və silahlı yüzbaşılar idarə edirdilər.

Fəslin ***"İrəvan xanlığının əhalisi"***adlanan ikinci yarımfəslində qeyd edilir ki, XVII yüzillikdə Çuxur-səəd bəylərbəyliyi Yaxın Şərqin və Qafqazın eyni etnik-mədəni tərkibli vilayətlərindən biri olmuşdur. Burada əhalinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edirdilər. 1591-ci ildə Osmanlı məmurları tərtib edilmiş Çuxur-Səəd bəylərbəyliyinin "Vergi dəftəri" XVI əsrdə İrəvan əhalisinin sayını və etnik tərkibini öyrənmək üçün ciddi elmi əhəmiyyətə malikdir[*].[2] Maraqlıdır ki, dəftərdə İrəvan qalaya və şəhərə bölünsə də, onların qarşılıqlı əlaqəsindən danışılır və şəhərin 10 məhəlləsində (Şəhər, Təpəbaşı, Dəmirbulaq, Şiləçi, Sabunçu, Boyaqçı, Toxmaq, Bağçalar, Yonçalıq və Börkçülər) yalnız azərbaycanlıların yaşadığı göstərilir.[3]

Təkcə İrəvanda deyil, bütün bəylərbəylikdə azərbaycanlılar, türkəsilli əhali yaşayır, sosial-iqtisadi məsələləri həll edirdilər.

Şəhərin etnik tərkibi haqqında 1700-ci il martın 10-da İrəvana gəlmiş alman səyyahı Kaspari Şillingerin məlumatı da diqqəti çəkir. O, yazır: "İrəvan şəhərinin daxilində yalnız farslar (Azərbaycan türkləri – T.M.), şəhərin daha iri qəsəbəsində erməni tacir və sənətkarları yaşayırlar və müxtəlif yerlərdə (görünür, Eçmiədzində – T.M.) kilsəyə xidmətləri üçün azərbaycanlılara vergi verirlər".[4]

XVIII əsrin birinci rübünün sonlarında İrəvan şəhərində Azərbaycan türkləri yaşayır və onu idarə edirdilər.

Sənədlər sübut edir ki, Abraam katolikosun İrəvana göndərdiyi beş-üç nəfər ermənidən başqa, XVIII əsrin 40-cı illərinə qədər Ağrı vadisində erməni əhalisi olmamışdır. Burada yalnız Azərbaycan türkəsilli əhali yaşamışdı.

Ümumiyyətlə, 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrindən sonra kütləvi köçürmələr zamanı «Erməni vilayəti»nə - İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə İran və Türkiyədən 57226 nəfər erməni (10631 ailə) köçürüldü. Köçürülmələrdən əvvəl həmin ərazidə cəmisi 25151 nəfər (4428 ailə) erməni yaşayırdı ki, onlar da bundan əvvəlki müharibələr zamanı köçürülmüşdü. Müharibələr nəticəsində İrəvan və Naxçıvan xanlıqlarının ərazisindən Azərbaycan türklərinin xeyli hissəsi

---

[1] Егиазаров С.А. Очерки по истории учреждений в Закавказье. Сельская община, ч. 1. Казань: 1889,s.81.

[*] Bu nadir sənəd (dəftər) İstanbulun Başbakanlık arxivində saxlanılır.

[2] İslam Ansiklopediyası. IV c. İstanbul: 1964.

[3] Yenə orada.

[4] Schillinger G. Persianische und Ost-indianische Reise. Nürnberg: 1716, s.118; İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 78; Məmmədova İ.M. İrəvan xanlığının əhalisi, s. 9.

qaçqın düşmüş, orada yalnız 81749 nəfər (16078 ailə) azərbaycanlı qalmışdı. Kütləvi köçürmələrdən sonra «Erməni vilayətin»də ermənilərin sayı 82377 nəfərə (15059 ailə) çatdı. Nəticədə vilayətdə erməni əhalisi müsəlmanları cüzi olsa da sayca üstələdi.[1]

Beləliklə, çoxsaylı və müxtəlifdilli mənbələr təkzibedilməz tərzdə sübut edir ki, istər XV-XVII əsrlərdə, istərsə də İrəvan xanlığının yerli, köklü əhalisi əsasən azərbaycanlılar olmuşdur. Keçmiş İrəvan xanlığının ərazisində saxlanılmış yer adları, dil faktlarının bir lay təşkil etməsi, onların arealı, İrəvan şəhərindəki etnik proseslər fikrimizi bir daha təsdiq edir.

Dissertasiyanın "**Sosial-iqtisadi münasibətlər**" adlanan ikinci fəslinin ***"Çuxur-səəd bəylərbəyliyinin sosial-iqtisadi münasibətləri tarixinə ekskurs"*** adlı 1-ci yarımfəslində deyilir ki, XV əsrdən başlayaraq bütün sonrakı dövrlərdə burada yerli türk tayfaları hakim qüvvəyə çevrilmişdi.

Azərbaycan Səfəvi dövlətinin inzibati ərazi bölgüsündə ən mühüm vahidlərdən biri Çuxur-Səəd bəylərbəyliyi idi.

Çuxur-Səəd vilayəti öz strateji mövqeyinə görə xüsusi yer tuturdu. Burada əsasən azərbaycanlılar yaşayırdılar. XIV əsrin sonundan etibarən Ağrı vilayətinin mərkəzi, Ağrı vadisi bu ərazini idarə edən Qaraqoyunlu hökmdarı Əmir-Səədin adı ilə Çuxur-Səəd adlanırdı. Çuxur-Səəd geniş əraziyə malik idi. Qərbdən Arpaçay, Qars, Kağızman şəhərlərini əhatə edirdi.[2]

Vilayətlər əsasən daha kiçik inzibati vahidlər və ya mahallardan ibarət olsalar da, hakimlər və ya naiblər tərəfindən idarə olunurdular. Lakin ayrı-ayrı kiçik və böyük vilayətləri ölkə hüququnda türk tayfaları idarə edir, əvəzində dövlətə silahlı qoşun və ya yasaqkeşlər verirdilər. Məsələn, Naxçıvan ölkəsi Kəngər elinin nəslinə verilmişdi. Sonuncular XIX əsrin əvvəlinə qədər onu idarə edirdilər. XVI əsrin əvvəlində Şah I İsmayıl Çuxur-səəd vilayətinin idarəsini Div Sultana Rumluya tapşırmışdı.

Bəylərbəyilər və yerli hakimlər əhaliyə münasibətdə şəriətin ali ruhani şəxslərinin iştirakı ilə məhkəmə hüququna malik idilər. Müxtəlif cür mülki işlərə, fərdi şəxslərin və icmanın mülkü iddiasına "şər" adlanan ruhanilərin iştirakı ilə cinayət işlərinə xan tərəfindən təyin edilmiş "divanbəyinin" başçılıq etdiyi "urfa" adlanan məhkəmədə baxılırdı. Urfanın iştirakı ilə qismən "dörd hala" aid işlərə baxılırdı: ölüm, zorlama, kor etmə, diş sındırma. Ölüm cəzasını yalnız xan verə bilərdi.

II fəslin ***"Torpaq sahibliyi"*** adlanan ikinci yarımfəslində deyilir ki, XVIII əsrdə Çuxur-səəd vilayətində və İrəvan xanlığında torpaq sahibliyinin ən geniş yayılmış forması mülk idi. İ.P.Petruşevski belə hesab edir ki, mülk digər torpaq sahibliyindən iki əsas əlaməti ilə fərqlənir: 1. Onu alıb-satmaq və ya varisə vermək olardı; 2. Ona yiyələnmək müəyyən bir dövlət qul-

---

[1] Şopen İ.İ. Göstərilən əsəri, s. 642.

[2] Papazyan A.D. Ararat ölkəsində əcnəbi idarə üsulu (XV). Erm.EA «Xəbərləri» (ictimai elmlər), 1960, №7,8, s. 23,27.

luğunu yerinə yetirməklə bağlı deyildi.[1]

Yuxarıda qeyd etdik ki, əmlak kəndlinin istifadə etdiyi torpaqdan götürdüyü məhsulun bir hissəsindən mülkədarın renta şəklində aldığı məhsul idi. İri mülkün varislər arasında bölünməsi ona gətirib çıxarırdı ki, kiçik mülkədarlar hökmranlıq edib mülkədar təsərrüfatı düzəltmək əvəzinə, çox vaxt mülkdən renta almaqla kifayətlənirdilər. Nəticədə mülkədar torpağın alınıb-satılmasına renta-verginin alqı-satqısı kimi baxırdı.

Müsəlman Şərqində olduğu kimi, XVIII əsrin II yarısından İrəvan xanlığında şəriət qanunları bərqərar olmuşdu.[2] Bu qanuna görə, torpaq dövlət mülkiyyəti hesab olunurdu. Lakin tədricən xüsusi mülk sahiblərinin və icmaların torpağa yiyələnmələrinin müxtəlif formaları və üsulları müşahidə olunurdu. Bu zaman kəsiyində torpağın inkişaf edib feodal torpaq mülkiyyətinə çevrilməsi xüsusiyyətini alırdı.[3]

XVIII əsrdə İrəvan xanlığında və bütün Azərbaycanda torpaq sahibliyi 5 qrupa bölünürdü. 1. Dövlət və ya divan torpaqları. 2. Saray və xasse-ye şərife. 3. Mulk. 4. Məscid və kilsələrə mənsub torpaqlar və ya movqufat-vəqf. 5. İcmalara məxsus torpaqlar.

İkinci fəslin ***"Torpaqdan istifadə qaydaları. Kəndlinin sosial-hüquqi vəziyyəti"*** adlanan üçüncü yarımfəslində qeyd olunur ki, XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Azərbaycanın digər xanlıqları kimi, İrəvan xanlığında da torpaq sahibliyinin aşağıdakı növləri yaranırdı. Dövlət və saray (xan) torpaqları. Burada kəndlilərin 70%-i təmsil olunurdu.

Dövlət torpaqları xanın ixtiyarında idi. Onlardan alının vergi-renta saraya məxsus idi. Dövlət torpaqları üç hissəyə bölünürdü:

1. Bəhrə verən kəndlər. Bunlar varlı və məhsuldar kəndlər idilər, çoxlu vergi verirdilər.

2. Yarım məhsuldar kəndlər. Bunlar zəif, dağılmış təsərrüfat idi. Xan-Sərdar bu kəndlərin sakinlərini əsas istehsalçı kimi təqdim edir, əldə etdikləri gəlirin yarısını əllərindən alırdı.

3. Rəncbər kəndlilər idilər. Onlar hər şeydən məhrum idilər. Xanın-Sərdarın tələbləri ilə işləyir, əldə etdikləri gəlirin ⅔ hissəsini xana verirdilər.

Torpaq sahibliyinin ikinci hissəsi mülkədar torpağı idi. Xan dövlətə xidmətinə, gözə çarpan qulluğuna görə, nəsli varis hüququ ilə bu və ya digər şəxsə torpağı və kəndi "mülk" şəklində bağışlaya bilərdi. Mülkədar müəyyən vaxt ərzində icmaya məxsus zəbtləri, yəni torpaq sahələrini genişləndirirdi.

Mülkədar kəndləri üç hissəyə bölünürdü bəhrə verən, yarımməhsuldar və rəncbər kəndlər. Mülkədar kəndlərindən götürülən gəlirin 1/10 hissəsi

---

[1] Вах: Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. Ленинград: 1949, с. 65-88.

[2] Персидские документы Матенадарана. 1, Указы, вып.1(1601-1650). (Составил А.Д.Папазян). Ереван: 1959, s.229-232.

[3] Вах: Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении, с. 85.

mülkədarın payı idi.

Belə vəziyyətdə "mülk" ancaq vergi-rentanın sinonimi olmaq anlayışını verirdi. Eyni zamanda "torpaq" və "mülk sahibi" onu sata bilər, hədiyyə edə və vəsiyyət edə bilər, varisinə verə bilərdi. Bu, müsəlman adəti hələ VII əsrdən qanunlaşmışdı.

Bu fəslin ***4-cü yarımfəsli xanlığın sənətkarlığı tarixinə*** həsr olunmuşdur. Burada qeyd olunur ki, XVI-XVII əsrlərdə İrəvan şəhərinin əhəmiyyəti daha da artır. İrəvan təkcə inzibati cəhətdən yox, həm də ölkənin iri sənətkarlıq ticarət mərkəzinə çevrilir. İrəvan xanlığının iqtisadi həyatında mühüm rol oynayan sənətkarlıq müxtəlif sənət sahələrini əhatə edirdi. Azərbaycanın ənənəvi sənətkarlıq sahələri olan toxuculuq və dulusculuq İrəvan xanlığında da inkişaf etmişdi. Bunların içərisində toxuculuq, o cümlədən xalça-palaz məmulatı istehsalı xüsusilə seçilirdi. Xanlığın əsas ıahalisi olan Azərbaycan türkləri ənənvi olaraq donuz deyil, qoyun saxladıqları üçün gözəl xalçalar, kisə, palaz, çul, qışda geyinmək üçün isti paltarlar, əlcək, corab və s. toxuyurdular.[1]

İrəvan xanlığında İrəvan şəhəri, Valarşabad, Naxçıvan xanlığında Naxçıvan və Əylis əsas sənətkarlıq mərkəzləri idilər. XIX əsrin əvvəllərində İrəvan xanlığında olan sənətkarların sayı 5000 nəfərə çatırdı.[2]

XVIII əsrin əvvəllərində İrəvan xanlığında açıq manufaktura tipli kiçik sənaye müəssisələri yaranırdı. İ.Şopen onları "fabrika" adlandırır. İrəvan xanlığının sənayesində, həmçinin Koxpda duz, Dərələyəz, Allahverdi və Dərəçiçəyin mis mədənləri də diqqəti cəlb edir. Mədən sahibləri podratçıların əli ilə istehsalçıları mühafizəkarlıqla istismar edirdilər.

XVIII əsrin ikinci yarısında İrəvan xanlığında sənətkarlığın inkişaf etmiş növlərindən biri də xalçaçılıq idi. Xalçaçılıq sənəti qədim köklərə malikdir. Xalçaçılıq toxuculuqla sıx əlaqədar idi. V.Abramyan yazılı mənbələrə istinad edərək İrəvan xanlığında sənətkarlığın əla növü olan xalçaçılığın inkişaf tarixini izləyəndə belə qənaətə gəlir ki, xanlıqda xalça, ümumən, parça istehsalı üçün kifayət qədər maddi baza vardı (yun, pambıq, ipək, kətan, çətənə). Hazırda muzeylərdə XIII-XVIII əsrlərə aid çoxlu xalçalar mühafizə edilib saxlanılır. Onlardan daha maraqlısı London şəhərinin "Viktoriya" muzeyində "Gövhər"[3] adı ilə saxlanılan xalçalardır. Tədqiqatçıların məlumatlarına əsasən İrəvan xanlığında toxunan həmin xalçaların toxunma texnologiyası, çeşidli ilmələrin vurulması və ornamentlərin rəngarəngliyi, milliliyi ilə diqqəti cəlb edir.[4]

İ.Şopenin verdiyi məlumata görə, "Erməni vilayəti"nin ərazisində hər bir ailədə toxuculuq dəzgahı mövcud idi və qadınların əyirdikləri saplardan

---

[1] ОРБЗ (Составил Лекгобытов), ч.IV. СПб.: 1836, с. 282-283; İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s.107.

[2] Erməni xalqının tarixi. IV c. İrəvan: 1972, s.32.

[3] Абрамян В.А. Ремесло в Армении IV-XVIII в., s.186-190, 270.

[44] Muradov V.A. Azərbaycanın İrəvan bölgəsi: tarixi və xalçaları, s. 97.

ailənin ehtiyacına görə pambıq parça toxunurdu. Ümumiyyətlə, vilayətin ərazisində 4206 dəzgah mövcud olmuşdur ki, il ərzində həmin dəzgahlarda 500 min arşın bez toxunurdu.[1]

Xanlıqda xalça və parça istehsalı ilə bağlı boyaqçılıq işi də xeyli inkişaf etmişdi. Faktlar göstərir ki, xanlıqda Zəngibasar, Vedibasar, Sərdarabad, Gərnibasar, Dərəçiçək, Zəngəzur, Mehri mahalları boyaq otları[2] ilə zəngin olduğuna görə, ərazidə boyaqçılıq geniş yayılmışdı.

Sənətkarlıq istehsalının mühüm sahələrindən biri metal emalı idi. XVIII əsrin ikinci yarısında xanlıq yaranandan sonra onun xüsusi emalatxanası vardı, burada xanın silahlı qüvvələri üçün silah, məişətdə işlənən mis qablar, nal və digər sənətkarlıq məmulatları hazırlanırdı. Ermitajda, Moskva və İrəvan tarix muzeylərində saxlanılan silahların xeyli hissələri məhz bu dövrə aiddir.[3] Bu silahların ornamentləri Şimali Azərbaycan şəhərlərində istehsal olunan sənətkarlıq məmulatları ornamentlərindən qətiyyən fərqlənmir. Soyuq silahlara, o sıradan xəncərə vurulan ornamentlər bu baxımdan daha səciyyəvidir.[4]

İrəvan xanlığında xüsusi xanlıq emalatxanasında istehsal olunan çoxlu hərbi ləvazimat saxlanılırdı: a) ox, kaman, sapan, nizə, mizraq, cida, xəncər, qılınc, balta, nacaq (başı ayparaya bənzər balıq), gürz, b) müdafiə ləvazimatı – qalxan, zireh, polad geyim, dəbilqə və yanacaq qarışığı; müdafiə və hücum qurğusu – pilləkən, tullayıcı silah[5] istehsal olunurdu.

XVIII əsrin ikinci yarısında İrəvan xanlığında faydalı qazıntıların istehsalı sənətkarlıq istehsalını təmin etmək səviyyəsində deyildi. Hər halda faydalı qazıntıların müəyyən hissəsinin emalı İrəvan xanlığında sənətkarlıq istehsalının inkişafına təkan verməsi şübhə doğurmur. Akop Qarnesi İrəvan xanlığında filiz çıxarılması barədə məlumat verir. O, yazır: "Orada (Qərbi Azərbaycan ərazisində – T.M.) mis, gümüş, dəmir çıxarılırdı".

Orta əsr Şimali Azərbaycanın İrəvan xanlığında mis emalı da kifayət qədər inkişaf etmişdir. Şəhərlərdə və kəndlərdə dəmir və mis məmulatları üzrə ixtisaslaşma gedirdi. Onların içərisində Şirvanda Lahıc, İrəvan xanlığında isə Karin və Xilat bu sahədə xüsusilə fərqlənirdilər. Şübhəsiz, qeyd olunan şəhərlərin sənətkarları tərəfindən istehsal edilən məmulatların qədim kökləri var idi. Məişət əşyalarının çoxu misdən hazırlanırdı. Qabqacaq, taz, dərin saxsı qablar, çıraq, şamdan, badya, məcmeyi.[6]

Sənətkar – misgərlər öz məhsulları ilə təkcə əhalinin tələbatını ödəmir,

---

[1] Şopen İ.İ. Göstərilən əsəri, s. 588.
[2] Abramyan V.A. Göstərilən əsəri, s. 271.
[3] Yenə orada, s.268.
[4] Государственный Исторический музей г. Москва, с.234, 256, 464, 467, 698, 713, 719.
[5] Abramyan V.A. Göstərilən əsəri, s.268-269.
[6] Əylisli Z. Gündəlik. İrəvan: Armfan, 1938 (qədim erməni dilində), s.115.

həm də müxtəlif sifarişlər qəbul edirdilər.[1] Qeyd etmək lazımdır ki, İrəvan xanlığının sənətkarlıq emalatxanalarında metal emalı qədimdən şöhrət tapmışdı, burada, zərif zərgərlik məmulatları hazırlanırdı.[2] Burada, həmçinin geniş ölçüdə şüşə istehsalı, bədii sənətkarlıq, musiqi alətləri, ağac emalı geniş inkişaf etmişdi.[3]

V.A.Abramyan XVII-XVIII əsrlərdə İrəvan şəhərində aşağıdakı əsas sənətkarlıq sahələrinin adını çəkir. Yuviler – zərgər – qızıl məmulatların ustası, misgər, dulusçu, nəqqaş, kamangər, tirgər, şişəgər, nəccar, cildçi, kağızsaz və s.[4]

II fəslin ***"Ticarət"*** adlı 5-ci yarımfəslində deyilir ki,XVII-XVIII əsrin ikinci yarısında xanlıqda ticarətin inkişafı üçün kifayət qədər obyektiv şərait vardı. Xanlığın iqtisadi həyatında ticarət xüsusi rol oynayırdı. Ticarət əsasən bazarlarda, köşklərdə və karvansaralarda aparılırdı. Bu da şəhərlərdə mərkəzləşmişdi. Məsələn, Rusiyanın işğalından sonra təkcə İrəvan şəhərində 5 bazar, 7 karvansara, 815 köşk var idi.

İrəvan şəhəri ticarət yollarının düyün nöqtəsində yerləşirdi. O, İrəvan xanlığı, Qacarlar İranı, Cənubi Azərbaycan – Təbriz, Osmanlı Türkiyəsi, Gürcüstan, çar Rusiyası ilə ticarət əlaqələri saxlayırdı. Bu ölkələrdən Qərbi Azərbaycana gəlir, buradan pambıq, çəltik (düyü), buğda, darı, bitki yağı, pendir, quru meyvə, dəri, yun, şərab və digər yerli mallar alırdılar. Azərbaycanın təcrübəli tacirləri Cənubi Qafqazda tranzit ticarəti aparırdılar. Onlar tacirlər sırasında tanınır və xüsusi rol oynayırdılar.[5]

II fəslin **"Vergi sistemi, vergi və mükəlləfiyyətlər"** adlanan 6-cı yarımfəslində deyilir ki,İrəvan xanlığının əhalisi vergi vermək siyahısında səkkiz qrupa – cəmiyyətə bölünmüşdü:

**Birinci cəmiyyətə** daxil olanlar:

a) Müsəlmanlar cəmiyyəti – şahın xəzinəsinə 1200 – tümən;

b) Erməni cəmiyyəti – 440 tümən

c) Qaraçılar 30 tümən vergi verməli idilər.

Göründüyü kimi, müsəlmanlar, daha doğrusu, azərbaycanlılar İrəvan xanlığında əhalinin böyük əksəriyyətini təşkil edirdilər.

**İkinci cəmiyyət** "Üçkilsə" monastırına aid idi. **Üçüncü cəmiyyətə** İ.Şopen Maku xanlığından pulla toplanılan vergiləri daxil etmişdir. **Dördüncü cəmiyyətə** elatlar, **beşinci cəmiyyətə** əhalinin binaçı adlanan, vergi verən qismi daxil edilmişdir (binaçı – bina sözündən olub maddi cəhətdən binası – bünövrəsi olan imkanlı ailələrdən alınırdı).

**Altıncı cəmiyyətə** pul ilə ödənilən "Hədiyyələr" daxil edilmişdi.

---

1 Abramyan V.A. Göstərilən əsəri, s.268.
2 Yenə orada, s. 85-90, 91-105, 106-119, 120-128,129-139.
3 Yenə orada, s. 84-87.
4 Yenə orada, s. 85-139.
5 Zəkəriyyə Sarkavak. (Kənəkirli) 1-III c. Vağarşabad: 1870 (qədim erməni dilində), s.45-47.

Bütün Şərq aləmində olduğu kimi, İrəvan xanlığında da bu vergi iki qismə bölünürdü və s. və i.a.

**Torpaqla əlaqədar vergilər** əsasən buğda ilə ödənilirdi. İrəvan xanlığında da bu vergi, Naxçıvan xanlığında olduğu kimi, "bəhrə" adlanırdı. Taxılçılıqla məşğul olan rəiyyət üçün "bəhrə" məcburi vergi idi.

**Mal-qaraya görə toplanılan vergi** (gümüş pulla) ödənilirdi.

Şəhərlilər aşağıdakı maddələr üzrə də xəzinəyə pul verməli idi:

**Mancanaq pulu, toxucu pulu, bağ pulu, bayramlıq**, **toyxərci, dəyirman pulu və s.** Tacirlər və sənətkarlar xəzinəyə ildə təqribən 400 tümən vergi verməli olurdular.[1]

Rəiyyət qeyd edilən vergilərlə yanaşı, müəyyən mükəlləfiyyət də daşımalı idi. Mükəlləfiyyət iki şəkildə olurdu - "biyar" və "əvariz"

İlk mənbələrdə vergi qanunları və «qanunnamələri»in olmadığı məlumdur. XVIII əsrin birinci yarısına qədər hadisələri şərh etdikdə, lazım gəldikdə Uzun Həsənin "Qanunamə"sinə müraciət edirdilər.

Çuxur-Səəd bəylərbəyliyində sosial-iqtisadi münasibətlər tarixinə aid faktların təhlili göstərdi ki, Qəsri-Şirindən sonra (1639) Səfəvi-Osmanlı sərhədində əsaslı dəyişiklik olmamış, ölkədə təsərrüfatın inkişafı üçün nisbətən normal şərait yaranmış, su təchizatı bağçılığın, əkinçilik, ticarət və sənətkarlığın inkişafına təkan vermişdir. Vergi siyahısında xanlığın əhalisinin cəmiyyətlərə bölünməsi, torpaq sahibliyi, divan və xalisə, vəqf, mülk torpaqları onlardan istifadə qaydaları, kəndlinin sosial hüquqi vəziyyəti şərh edilmişdir.

Dissertasiyanın **"XVIII – XIX əsrin əvvəllərində sosial-iqtisadi vəziyyət"** adlı üçüncü fəslinin ilk yarımfəsli ***"XVIII əsrin I yarısında Çuxur-səəd vilayətinin sosial-iqtisadi həyatı"*** adlanır. Burada əsasən xanlığın yaranması ərəfəsində və yarandığı ilk dövrdə İrəvan bölgəsinin sosial-iqtisadi durumundan bəhs edilir.

Burada müəllif qaynaqlar, o cümlədən də erməni mənbələri əsasında XVIII-XX əsrin əvvəllərində İrəvan xanlığının sosial-iqtisadi həyatında baş vermiş proseslər izlənilmiş, erməni dünyəvi dini feodalları tərəfindən Azərbaycan torpaqlarının tədricən ələ keçirilməsi ətraflı şəkildə tədqiq edilmişdir.

Erməni feodalları tərəfindən satın alınan torpaqların cədvəli verilir, torpaqların satınalınma qiymətləri göstərilir.

Qeyd edilir ki, erməni feodalları açıq və kobud surətdə mövcud adət-ənənəni və qaydanı pozaraq, XVII əsrin sonu – XVIII əsrdə azərbaycanlılarla və ermənilər arasında ziddiyyətləri daha da artırırdılar.

III fəslin ***"XVIII əsrin II yarısı - XIX əsrin əvvəllərində sosial-iqtisadi vəziyyət"*** adlanan ikinci yarımfəslində qeyd edilir ki, XVIII əsrin 70-80-ci illərində və sonralar İrəvan xanlığı bir sıra yürüşlərə, talanlara məruz qalsa da, İrəvan şəhərinin təsərrüfatı bir o qədər zərər çəkməmişdi.

İrəvan xanlığı Cənubu Qafqazda ən varlı və məhsuldar idi. Burada bol

[1] Azərbaycan MEA A.Bakıxanov adına Tarix İnstitutunun elmi arxivi, iş 467.

yaşıllıq vardı. XVIII əsrin əvvəllərində rus səfiri A.Volınski burada olarkən yazmışdı: "Bütün İranda (Azərbaycanda – T.M.) İrəvan ən gözəl yerdir, Osmanlı imperiyası sərhədlərindən başlayaraq, İrəvanı və Təbrizi ən yaxşı şəhər hesab edirlər. Bu şəhərdə bol çörək var, qızğın ticarət gedir, İrana çox xeyir verir".[1] T.T.Mustafazadə və Ş.F.Fərzəlibəyli Quba xanlığının tarixi ilə bağlı kitablarında bu barədə məlumat vermişlər.[2] G.C.Nəcəfli də tədqiqatında İrəvan xanlığına dair məlumat verir.[3]

Lakin A.Volınskinin vaxtında və sonralar, XVIII əsrin ortalarına qədər müharibələr və yürüşlərin nəticəsi olaraq Çuxur-səəd vilayətinin təsərrüfatı xeyli tənəzzül etmişdi.

İrəvan xanlığının əhalisinin əsas məşğuliyyəti əkinçilik idi, müxtəlif bitkilər – buğda, arpa, çəltik (düyü), kətan, pambıq, üzüm və s. yetişdirirdilər. Tərəvəzçilik xüsusilə inkişaf etdirilirdi. Bəzi məlumatlara görə, xüsusi adamlar İrəvana gəlir, buradan bostan bitkiləri toxumu alırdılar.

Ağrı vadisində kənd təsərrüfatının əsas sahələrindən biri də maldarlıq idi. İstər aran, istərsə də dağ rayonlarında köçmə və yarım köçəri təsərrüfatlar da maldarlıqla məşğul idilər. Xan heyvandarlardan alınan vergilərdən böyük mənfəət əldə edirdi. Əlbəttə, köçmə təsərrüfat bundan daha çox zərər çəkirdi. Çünki onlar vergidən əlavə, öz atları və qoşunları ilə hərbi qulluqda da olmalı idilər.[4]

Xanlıqda sənaye nisbətən zəif inkişaf etmişdi. Qulp kəndinin ərazisindəki duz mədənindən çıxarılan duz İrəvan xanlığından əlavə Gürcüstana, Qarabağa, Osetiyaya, Axıska paşalığına ixrac edilirdi. İ.Şopenin verdiyi məlumata görə Qulp mədənindən çıxarılan duzdan təxminən535 min nəfərdən artıq əhali istifadə edirdi. Qulp duz mədənindən hər il 100 min gümüş rubl gəlir götürülürdü.

XVIII əsrin ikinci yarısında İrəvan xanlığı ərazisində çoxlu yağ zavodlarının olması xanlıqda bitki yağı istehsalının genişlənməsini sübut edir. Mənbənin məlumatına görə, İrəvan əyalətində 25 yağçəkən müəssisə, 340 su dəyirmanı, 85 ding və 1 kərpic zavodu vardı.[5]

İrəvan bölgəsi müxtəlif ölkələrə gedən ticarət yollarının qovşağında yerləşdiyindən Azərbaycanın beynəlxalq ticarət əlaqələrində yaxından iştirak edirdi. Məhz bu səbəbdən İrəvan xanlığı ərazisində çoxsaylı körpülər,

---

[1] Алиев Ф.М. Миссия посланника русского государства А.П.Волынского в Азербайджане (1716-1718 гг.). Баку: 1979, с. 117.

[2] Mustafazadə T.T. Quba xanlığı. Bakı: 2005; Fərzəlibəyli Ş.F. Quba tarixi. Bakı: 2001.

[3] Nəcəfli G.C. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin ikinci yarısı). Bakı: 2002.

[4] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 105.

[5] ОРБЗ (Составил Лекгобытов), ч. IV, s.283-284; İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 111.

karvansaralar, zərbxanalar və bazarlar var idi.[1]

XVIII əsrin ikinci yarısında İrəvan xanlığında torpaq sahibliyinin iki kateqoriyası arasında olan fərq aradan götürülmüşdü və bu torpaqların hamısı İrəvan xanlığına aid edilirdi. Əgər əvvəllər "divan" torpaqları şahın vəzifəli adamı, Mustofi-ul-məmalik tərəfindən idarə edilirdisə, indi həmin torpaqlar İrəvan xanı məmurlarından birinin himayəsi altında idi. Başqa sözlə, divan torpaqlarının bütün məhsulu xanın əlində mərkəzləşirdi.

Xanlığın torpaqlarının bir hissəsini vəqf torpaqları təşkil edirdi. Dini idarələrin torpaqları və digər mülkləri (dəyirmanlar, yağ zavodu, dinklər və s.), onların xidmətçiləri rəsmi olaraq hər cür vergidən azad idilər.

XVIII əsrin 30-40-cı illəri ilə müqayisədə Cənubi Qafqazın digər bölgələri kimi, İrəvan xanlığının iqtisadiyyatı az-çox inkişaf edirdi. Ticarətdə canlanma müşahidə olunur, sənətkarlıq inkişaf edirdi. Bütün bunlar iqtisadiyyatın inkişafına təkan verirdi. Buna görə də xan şəhərdə və ondan kənarda inşaat işlərini genişləndirməyə imkan tapırdı.

Mövcud materialların təhlili bir daha göstərir ki, İrəvan xanlığında sosial-iqtisadi həyat əsasən digər Azərbaycan xanlıqlarında olduğu kimi idi.

İrəvan xanlığının tarixi Azərbaycan xalqının əsrlər boyu yaratdığı zəngin maddi və mənəvi mədəniyyət tarixinin ayrılmaz tərkib hissəsidir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatdan irəli gələn əsas müddəalar ümumiləşdirilmişdir.

---

[1] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 109.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. XVIII əsrin II yarısında İrəvan xanlığında kəndlinin hüquqi vəziyyəti // Doktorantların və gənc tədqiqatçıların XV elmi konfransının materialları. Bakı: 2011, №1;
2. XVIII əsrin II yarısında İrəvan xanlığının sərhədləri və idarəçilik sistemi // ADPU-nun "Xəbərləri", humanitar elmlər seriyası. Bakı: 2011, №1;
3. XVIII əsrin II yarısında İrəvan xanlığının inzibati ərazisi // BDU-nun "Xəbərləri". Bakı: 2011, №1;
4. XVIII əsrin II yarısında İrəvan xanlığının etnokonfessional strukturu // Tarix, insan və cəmiyyət. Müəllimləri Təkmilləşdirmə İnstitutu. Bakı: 2011, №1;
5. О достоверности фактов, касающейся о социально-экономических положений Иреванского ханства // Журнал "Кавказ и мир". Тбилиси: 2016, №1.

*Mammadov Tural Suleyman oghlu*

**SOCIAL-ECONOMIC RELATIONSHIPS AND GOVERNEMENT STRUCTURE IN THE IRAVAN KHANATE (1747-1828)**

**SUMMARY**

The dissertation is devoted to the study of the relationship between the Irevan Khanate and the Ottoman Empire in the second half of the 18th and early 19th centuries.

The thesis consists of the introduction, four chapters, eleven paragraphs, conclusion, list of the used sources and literature.

In the introduction is substantiated the actuality of the topic, choice of the chronological frames, thoroughly discussed the source base and the historiography of the problem, determined the goals and objectives, the practical importance and scientific novelty of the investigation.

In the first chapter of the thesis, entitled "Central and local management systems, administrative-territorial division and population", consisting of three paragraphs, on the basis of a large number of sources described the issues of the state system, mahals, their structure, boundaries and management system.

In the second chapter of the thesis consisting of six paragraphs "Socio-economic relations"the following questions are being discussed:an excursion into the socio-economic relations of the Irevan Khanate, land ownership, the tax system, taxes and duties imposed on the peasants, craft, trade, land use rules, and the social and legal status of the peasants.

In the third chapter of the thesis "The socio-economic situation in the first half of the $18^{th}$ - the first half of the 19th century", consisting of two paragraphs covers such issues as the social and economic life of Western Azerbaijan in the first half of the 18th century and the socio-economic situation in the first half of the 18th - the first half of the 19th centuries.

In the conclusion have been summed up the results of the research.

***Мамедов Турал Сулейман оглу***

# СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ ОТНОШЕНИЯ И ГОСУДАРСТВЕННЫЙ СТРОЙ В ИРЕВАНСКОМ ХАНСТВЕ (1747-1828)

## РЕЗЮМЕ

Представленная к защите диссертационная работа посвящена изучению связей между Иреванским ханством и Османской империей во второй половине XVIII– начала XIX вв.

Диссертационная работа состоит из введения, трех глав, 11 параграфов, заключения, списка использованных источников и литературы.

Во введении диссертации обоснованы актуальность темы, выбор хронологических рубежей, обстоятельно проанализированы источниковая база и историография проблемы, определены цели и задачи, практическая значимость и новшества исследования.

В первой главе диссертации, озаглавленной «Центральные и местные системы управления, административно-территориальное деление и население», состоящей из трех параграфов, на основе большого количества источников описываются вопросы государственного строя, магалы, их структура, границы и система управления.

Во второй главе диссертации «Социально-экономические отношения», состоящей из шести параграфов, исследуются следующие вопросы: экскурс в социально-экономические отношения Иреванского ханства, землевладение, налоговую систему, взимаемые у крестьян налоги и повинности, ремесло, торговлю, правила землепользования, социально-правовое положение крестьян.

В третьей главе диссертации «Социально-экономическое положение в первой половине XVIII в. – первой половине XIX в.», состоящей из двух параграфов, освещаются такие вопросы, как социально-экономическая жизнь Западного Азербайджана в первой половине XVIII в. и социально-экономическое положение в первой половине XVIII в. – первой половине XIX в.

В заключении работы обобщены и подытожены основные результаты и выводы диссертационной работы.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə.
“Turxan” NPM

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ имени А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**ТУРАЛ СУЛЕЙМАН оглу МАМЕДОВ**

# СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ ОТНОШЕНИЯ И ГОСУДАРСТВЕННЫЙ СТРОЙ В ИРЕВАНСКОМ ХАНСТВЕ (1747-1828)

**Специальность: 5503.02 – «Отечественная история»**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**Баку – 2018**